**HÜSEYNBALA MİRƏLƏMOV**

# ZURNAÇALAN BEHBUD

Talıb başqa həmyerliləri kimi, Bakının kömürçü bazarında alver edirdi. O, Masallıdan, Lənkərandan, Astaradan iri zənbillərdə gətirilən Akülə, Əmbərbu, Sədri düyülərini alıb piştaxtaya boşaldır və bütün günü satırdı. Gecələr də daha uzağa getməyib elə bazarın yataqxanasında qalırdı. Bazarda bazarkom, milis, sahə müvəkkillərinə kimi hamı onu yaxşı oğlan kimi tanıyırdı. Çünki özü demişkən, hamının nəzirini vaxtlı-vaxtında verir, qazandıqlarının qalanı ilə həm özünü dolandırır, həm də Masallıda, rayon mərkəzində yaşayan bacı və qardaşlarına göndərirdi. İldə bir dəfə Novruz bayramında Masallıya – evlərinə gəlir, bayram axşamını doğmalarıyla keçirirdi.

Talıb 27-28 yaşlarında sağlam bir cavan idi.O da başqaları kimi kef eləmək istəyirdi. Ancaq kasıbçılıq buna imkan vermirdi. Yenə piştaxta arxasında əynində xələt düyü çəkirdi ki, xoş bir səs eşitdi.

– Mənə də iki kilo çək.

Talıb başını qaldırıb gördü ki, cavan, qaragöz, cazibədar bir gəlindir. O, düyünü çəkərkən xanımın altdan-altdan onu süzdüyünü hiss etdi. Talıb eşitmişdi ki, bəzi təcrübəli həmyerliləri burada arvad tapıb, necə deyərlər, həm yaşayır, həm də pulsuz, rahat evdə yatırlar. Özünə qulluq eləməkdən, yemək bişirməkdən bezikən Talıb da daim bir beləsini arzulayırdı.

Piştaxtasını onunla yanaşı alver edən həmyerlisinə tapşırıb cəld qadının dalınca götürüldü. Bəlkə, Allah özü onunçün göndərib. Həyəcandan əl-ayağı əsirdi. Qadın küçə və dalanlardan keçərkən düyü satanın onun dalınca gəldiyini hiss edərək bir neçə dəfə dönüb dala baxdı. Talıb bu baxışlardan ürəklənərək onu təqib etməyə başladı.

Qadın çox getmədi. Həyətlərdən birinin qapısını açıb içəri girdi. Ani tərəddüddən sonra Talıb da onun kimi etdi. Həyətdə gördü ki, qadın qapını açıb evə girdi. Talıb həyətin ortasında qalıb bilmədi ki, neyləsin. Birdən qapı açıldı və evdən ortaboy, qarabığlı, dolubədənli, 40 yaşlarında bir kişi çıxdı. Və barmağının işarəsiylə Talıbı yanına çağırdı.

Talıbın canından gizilti keçdi. O, qaçmaq istədi. Ancaq ayaqları elə bil kilidlənmişdi. İstər-istəməz kişinin yanına gəldi. Kişi qapını göstərib – keç içəri, -

dedi. Talıb içəri keçdi. Dördkünc bir otaq idi. Ortada miz və bir neçə stul qoyulmuşdu. Ev yiyəsinin işarəsi ilə Talıb stulların birində oturdu. Gözlərini məzlum-məzlum kişinin zəhmli üzünə zillədi.

– Adə, alçaq adam, qızın dalıycan niyə gəlmisən?

Bu sözlərdən sonra burada, Bakıda səssiz-səmirsiz öldürülən adamlar haqqında söhbətlər Talıbın yadına düşdü. Və "əcəb yerdə axşamladım", - deyə fikirləşdi. O, gələ-gələ əlbəttə, müəyyən bəhanələr fikirləşmişdi. Amma indi onların hamısı tamamilə mənasız bir şey olmuşdu. Zəhmli ev yiyəsi isə ondan cavab gözləyirdi.

Talıb nə qədər əlləşsə də, danışa bilmədi. Boğazı elə qurumuşdu ki, dili tərpənə bilmirdi. Kişi bunu hiss edib – arvad, qrafinkada su gətir, - dedi. Və az keçməmiş həmin gəlin əlində su dolu qrafinka və stəkan içəri girdi. Kişi qrafini əyib stəkanı doldurdu və Talıba – "götür iç", - dedi.

Talıb əlləri əsə-əsə, suyu dağıda-dağıda stəkanı dodaqlarına aparıb güclə bir-iki qurtum icdi. Kişinin elə bil zəhmi bir qədər azaldı və o, Talıbı süzüb haçandan-haçana dedi:

– Haralısan?

– Masallıdan.

– Zurnaçalan Behbudu tanıyırsan?

– Bəli.

– Yalan demirsən ki?

– Yox, vallah tanıyıram.

Kişi bir xeyli fikrə getdi, başının işarəsi ilə qapını göstərib dedi:

– Yaxşı, dur get, səni o kişiyə bağışlayıram. Bir də belə oğraşlıq eləmə. Adam tanımadığı, bilmədiyi qızın dalınca düşməz.

Talıb xilas olduğunu görüb ürəyində zurnaçalan Behbuda dua edə-edə qapıdan çıxıb bazara gəldi və düz bir saat özünə gəlmədi.

2000